*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 422-429*

https://doi.org/10.62837/2025.5.422

**İSMAYIL AYDIN OĞLU AĞAYEV**
***Fil.üzrə fəl.dok***
**Sumqayıt Dövlət Universiteti**
**ismayil.agayev.66@ mail.ru**

# QƏDİM TÜRK ABİDƏLƏRİNDƏ TARİXİLİK VƏ QƏHRƏMANLIQ

**Xülasə**

Məqalədə qədim türk abidələri, yazılı mətnlər ictimai-fəlsəfi, bədii-estetik baxımdan araşdırılır. Qədim türklərin döyüşlərlə dolu tarxinə nəzər salınır, torpaqların qorunması, xalqın azad yaşaması üçün apardıqları mübarizələrdən bəhs edilir. Dövlətin, xalqın qorunması üçün tarixi şəxsiyyətlərin gələcək nəsillərə yönəlmiş çağırışlarının ictimai-əxlaqi məzmunundan danışılır. Cəmiyyət daxilindəki bütövlük, daxili birliyin sarsılmazlığı düşmənə qarşə mübarizədə qalibiyyətin əsası kimi göstərilir. Tarixi şəxsiyyətlərin həyat və mübarizə yollarının öyrənilməsinin zəruriliyi, qəhrəmanların vətən, xalqla bağlı fikir və baxışlarının müasirliyi aydınlaşdırılır.

Türklərin ana dilində olan ilk yazılı nümunələri VI-VII əsrlərdə Orxon və Yenisey çayları sahilində tapılmış qəbirüstü yazılardır. Bu yazılar qədim türklərin yaratdıqları əlifba ilə yazılmışdır. Bu əlifbanın oxunması qədim türk dilinin öyrənilməsi ilə bərabər, qədim türk tarixinin və böyük bir mədəniyyətin də aşkara çıxarılmasına, türk dilli xalqların etnik mədəni bağlılıqlarının tədqiq edilməsinə imkanlar yaratmışdır. Qədim türk abidələri içərisində “Kül tiqin”, “Bilgə kağan” və “Tonyukuk” adlandırılan yazılı mətnlərin xüsusi yeri vardır.

**Açar sözlər: qədim türklər, türk mədəniyyəti, türkdilli xalqlar, yazılı abidələr, tarixi şəxsiyyətlər, tarixilik, qəhrəmanlıq**

Azərbaycan ədəbi-bədii, fəlsəfi fikri ümumtürk ictimai-fəlsəfi fikrinin tərkib hissəsidir. Bu baxımdan Azərbaycan ədəbiyyatı və incəsənəti, ədəbi-fəlsəfi dünyagörüşü ilə bağlı hər hansı bir fikir yürüdərkən ümumtürk tarixinə nəzər salmaq, ictimai və mədəni inkişafın mərhələlərini ümumtürk məzmununda aydınlaşdırmaq obyektiv yanaşmadır. Tarixin dərin qatlarına endikcə türkdilli xalqların dil, ədəbiyyat, mədəniyyət və incəsənət baxımından vahid mənbələrə söykəndikləri anlaşılır. Türkdilli xalqlar arasındakı bu bağlılıq müəyyən zamanlarda daha güçlü olmuş, yaradılan ədəbi, fəlsəfi, elmi nümunələr vahid türk ədəbiyyatının, türk fəlsəfi və elmi fikrinin formalaşmasına güclü təsir etmişdir. Qədim türk dövründə yaranan ədəbi nümunələr və müxtəlif mövzulu dastanlar, yazılı mətnlər türk tarixi ilə sıx bağlı olmuş, burada tarixi şəxsiyyətlər, hadisələr haqqında geniş məlumat verilmişdir.

Qədim türklərin Şərq tərəfinin araşdırılması onu deməyə imkan verir ki, qədim Türk-Çin əlaqələri dərin və geniş miqyaslı olmuş, bu əlaqələr yalnız iqtisadi-siyasi münasibətlərlə məhdudlaşmamış, mədəni sahələrdə də qurulmuş, inkişaf etmişdir. Bir çox bədii parçalar, şeirlər çin dilinə tərçümə edilmiş, qədim türk poeziyasının nümunələri çin dilində müasir dövrə gəlib çatmışdır. Çin dilində də vəznli, qafiyəli olan bu bədii parçalar türkcə səsləndirilən zaman ilk yaranışında olan gözəlliyini, poetik təravətini qoruyub saxladığının bir daha göstərir. Çin dilindən tərçümə edilmiş IV-V əsrlərə aid olan türkülərdə acılar, nisgil, kədər, həsrət, ayrılıqdan doğan iztirablar, xəyalların ardınca qoşub doğmalarını görmək niyyəti, bu arzuların gerçəkləşməməsinin verdiyi ağrılar  kimi motivlər olduqca təsirli ifadə edilmişdir. Bu poetik parçalarda emosiyanın dərinliyi, hissin zənginliyi onu deməyə əsas verir ki, türkünün müəllifi həyatı dərindən duymaq və düşünmək bacarığına malik olmuş, həyatını tutmuş acı  kədərlə mübarizə aparmış, kədərin qarşısında vüqarla dayanmaışdır.

Türklərin ana dilində olan ilk yazılı nümunələri VI-VII əsrlərdə Orxon və Yenisey çayları sahilində tapılmış qəbirüstü yazılardır. Bu yazılar qədim türklərin yaratdıqları əlifba ilə yazılmışdır. XIX əsrin sonlarında bu əlifbanın oxunması qədim türk dilinin öyrənilməsi ilə bərabər, böyük bir mədəniyyətin də aşkara çıxarılmasına, türk dilli xalqların etnik mədəni bağlılıqlarının tədqiq edilməsinə imkanlar yaratmışdır. Qədim türk abidələri içərisində "Kül tiqin", "Bilgə kağan" və "Tonyukuk" adlandırılan yazılı mətnlərin xüsusi yeri vardır. Bir çox tədqiqatçılar bu Orxon-Yenisey abidələrini tarixi-qəhrəmanlıq poemaları adlandırmış, bu daş kitabələrdə verilmiş hadisələri, qəhrəmanları bədiilik baxımından yüksək qiymətləndirmiş, "Kül tiqin", "Bilgə kağan", "Tonyukuk" adlandırılan kitabələrin məzmunca bir-birini tamamladığını, hadisələrin bir xalqla bağlılığını, formaca uyğunluğunu əsas götürərək trilogya saymış, bədii-sənədli qəhrəmanlıq dastanları hesab etmişlər.

Kitabələr işərisində Göy Türk dövlətçilik tarixində böyük şöhrət qazanmış İlteriş xaqanın oğlanlarından olan Kül tiqinin şərəfinə yazılmış 71 sətirdən ibarət olan mətn xüsusilə seçilir. Kül tiqin və Bilgə kağan qardaşlarının tarixi mübarizələri "Kül tiqin" kitabəsində əks olunmuşdur. Kül tiqin böyük qardaşı Bilgə kağanla birlikdə Göy Türk dövlətini Çin köləliyindən xilas etmiş, Göy Türk dövlətinin keçmiş şöhrətini özünə qaytarmışdır. Kitabədə qeyd edilir ki, türk xalqının müdrik və cəsur başçısı olanda türk qüdrətli millət olur, güclü dövlət qurur. Başçı güclü, müdrik və cəsarətli deyilsə, tamahkar, nadan və yalançıdırsa, türk xalqı kölə olacaq, yurdu talan ediləcək, dövlətini itirəcəkdir. "Kül tiqin" kitabəsində dövlət qurulucuğunda, millətin formalaşmasında, dövlət və xalq birliyinin yaranmasında müdrik, cəsarətli, ən mürəkkəb vəziyyətlərdə doğru-düzgün qərarlar verməyi bacaran siyasi xadimin, dövlət başçısının, xaqanın rolu xüsusi dəyərləndirilir, dövlət və idarəetmədə, siyasi mübarizələrdə tarxi şəxsiyyətin rolunun misilsiz olduğunu göstərilir. Hərb və siyasət

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 422-429*

meydanında, dövlətin idarə edilməsində əldə edilən uğurun, qazanılan qələbənin xaqanın, millətin önündə gedən şəxsiyyətin, hərb meydanında döyüşü idarə edən sərkərdənin qabiliyyət və bacarığından asılılığını sanki gələcək nəsillərə çatdırmaq istəyir.

"Kül tiqin" kitabəsində göstərilir ki, 562-ci ildə qurulan Göy Türk dövləti onun qurucusu Bumun xaqanlığı dövründə Gündoğanda böyük bir ərazini tutur, sərhədləri Mancuriyadan başlayıb Qara dənizə qədər uzanan imperatorluq qurur. Ərazinin böyüklüyünü nəzərə alan xaqan Bum dövlətin Gündoğan hissəsinin idarəsini özü aparır, Günbatan hissəsini isə qardaşı İstemi xanın idarəçiliyinə verir. Beləliklə, Göy Türk dövləti ikiyə bölünərək idarə edilir, xaqan Bumun ölümündən sonra Çin imperatorluğu bütün əraziləri işğal etmək, Göy Türk dövlətini süquta uğratmaq istəyir. Çin imperatorluğu Göy Türk dövlətini böyük təhlükə sayaraq müxtəlif siyasi intriqalardan, siyasi hiylələrdən istifadə edib Göy Türk dövlətinin Gündoğan və Günbatan tərəfləri arasında qarşıdurma yaradır və bu qarşıdurmadan istifadə edərək 630-cu ildə Gündoğanı, 660-cı ildə isə Günbatanı əsarətə alır.

Amansız əsarət, zülmlər, ölkənin talanması on illərlə davam edir, türkün, türklüyün məhvi, ya da digər xalqlar içərisində əridilməsi təhlükəsi güclənir. Belə bir mürəkkəb şəraitdə, işğaldan əlli ötəndən sonra 681-ci ildə İlteris adlı bir qəhrəman Göy Türk dövlətini Çin əsarətindən qurtarmaq üçün siyasi-hərbi meydana daxil olur. Böyük və ağır mübarizələrdən sonra İlteris məqsədinə nail olur, türk xalqı Çinin əsarətindən xilas edilir. İlterisin ölümündən sonra hakimiyyət İlteris xaqanın qardaşı Kapağana, daha sonra oğullarına-Kül tiqin və Bilgə kağana verilir.

Kitabədə azadlıq uğrunda mübarizədən, milli istiqlaliyyətdən, əsarətdən xilas olmaqdan danışılır, savaş meydanlarından, ordunun qüdrətindən bəhs edilir. Maraqlı budur ki, bir çox xalqların tarixində hakimiyyət uğrunda qardaşlar arasındakı kəskin mübarizə, qarşıdurmalar haqqında xeyli məlumatlar var, doğmalar, qardaşlar hakimiyyəti bölə bilməmiş, tək hakimiyyət istəyi ciddi konfliktlərə səbəb olmuşdur. İlteris xaqanın oğulları- Kül tiqin və Bilgə kağan arasında atalarının ölümündən sonra qarşıdurma, konflikt, xəyanət olmur, əksinə, Kül tiqin Bilgə kağanın taxtda oturması üçün ciddi səy göstərir, qardaşlar arasındakı sədaqət, etibar, mənəvi bütövlük türk millətinin mövcudluğuna və türk dövlətinin daha da güclənməsinə səbəb olur.

"Kül tiqin" adlanan kitabə Göy Türk imperatorluğunun başında olan Bilgə kağanın kiçik qardaşı Kül tiqinin şərəfinə qoyduğu xatirə abidəsinin üzərində yazılmış, mətn Bilgə kağanın dilindən verilmişdir. Maraqlı cəhət budur ki, kitabədə ilk sətirlərdə tarixi hadisələrdən, hərbi səfərlərdən bəhs edilmir, Kül tiqinin xatirəsinə həsr edilən hissədə onun adı çəkilmir. Bir-birindən möhtəşəm çağırışlarla türk xalqına müraciət edilir, ibrətamiz nəsihətlərə, türk xalqının sabahına işıq tutacaq müdrik ifadələrə xüsusi yer verilir. Bilgə kağan milləti ucaltdığından, fitnə-fəsadsız qurulan türk dövlətinin idarə edilməsində heç bir sıxıntının olmadığından, Şandu

çölündən Dəmir Qapıyadək ordu ilə keçdiyindən danışır, tanrının buyruğu və taleyinin gətirməsi ilə kağan taxtında oturduğunu, az xalqı çox, yoxsul milləti varlı etdiyini bildirir, türk millətinin birləşdirib dövlət səviyyəsinə çatdırdığını söyləyir. Kitabədə qardaşlar arasında nifaq salmaqla dövətin zəifləməsindən, kağan olan kiçik qardaşların, oğulların böyük qardaşlarının, babalarının yolları ilə getmədiklərindən, taxtda müdrik kağanların oturmadığından, dövlətin daxilinə nifaq salmaqla dövlətin süqutuna səbəb olmalarından, daxili parçalanmalardan, döyüşlərdən bəhs edilir. Belə parçalanma türk xalqının köləliyə məhkum edilməsinin səbəbi kimi göstərilir, kağanlığın süqutu ilə nəticələnəcəyi bildirilir.

Türk birliyinin içərisinə tabğaçlar tərəfindən nifaq salınır, qardaş qardaşa düşmən edilir, hakimiyyət ehtirası gücləndirilir, tabğaçların qurduğu siyasi oyunlar nəticəsində daxili çəkişmələr getdikcə kəskinləşir, türk bütövlüyü zədələnir, zəfərlərin səbəbi olan birlik dünyası parçalanır, acı məğlubiyyət imperiyanın qapılarını döyür. Türkün böyük faciəsi birliyin pozulmasından sonra başlayır, dünəni zəfərlərlə dolu olan, döyüş meydanlarında məğlubiyyət nə olduğunu bilməyən xalq əsarətə düşür, köləlik dünyasını yaşayır. Böyük kağanlıq süquta uğramış, türk xalqı tabğaçların itaətinə keçmiş, onların əsarəti altında yaşamağa məcbur olmuşdur. Əsarət, kölə dünyası daha da sərt yaşam tərzi müəyyənləşdirmiş, türk kişiləri qul, türk qızları, qadınları isə tabğaçlara kəniz-cariyə olurlar. Bütün bunlar azmış kimi, türk döyüşçüləri, türk bəyləri öz türk adlarını atır, tabğaç adlarını və titullarını götürüb tabğaç kağanına xidmət edirlər. Köləlik dünyasını ömrü əlli olur. Dünəni zəfər dolu bir xalq tarixi yaddaşını yenidən yaşayır, köləlik dünyasını qüruruna, heysiyyətinə yaraşdırmır, bunu tarixinə ləkə kimi qiymətləndirir, Bumun kağanın şöhrətə çatdırdığı bir xalqın amalının, məqsədinin azad yaşamaq olduğunu, köləlik, itaət dünyasının onların ruhuna yadlığını əsarətə qarşı mübarizəsi ilə təsdiqləyir. Gündoğanla Günbatan arasında, Güneylə Quzey arasında böyük bir imperiya quran, dövlətin adını Göy Türk qoyan ataların övladları köləlik dünyasını qəbul etmir, tarixi yaddaş hərəkətə gəlir, bu yaddaş türk övladlarının fikrində, düşüncəsində, ruhunda gizlənmişləri-azadlıq duyğusunu alovlandırır, tarix səhnəsində özünütəsdiq üçün mübarizəyə qaldırır.

Tarixi yaddaşa istinad etməklə xalqının fikir və düşüncəsini, milli hisslərini səfərbər edən “Kül tiqin”, “Bilgə kağan”, “Tonyukuk” kitabələri də tarixi yaddaş rolunu oynayır, tarixi yaşanmışları acıları və uğurları ilə gələcək nəsillərə ötürür. Köləlik, əsarət dünyasına qarşı mübarizəyə qalxan İlteris on yeddi nəfər döyüşçü ilə hərəkətə başlayır, çox az vaxtda böyük qüvvə ilə döyüşə atılır, bütün döyüşlərdən qalib çıxır. İlteriş kağan döyüşlərdə “Dizlini diz çökdürmüş”, “Başlını baş əydirmiş”dir, burada “Dizli” dedikdə döyüşçü, “Başlı” dedikdə isə hökmdarlar nəzərdə tutulur. İlterişin ölümündıən sonra qardaşı Kapağan hakimiyyətə keçir, bu hakimiyyət dövründə də daxili bütövlük qorunub saxlanılır, Kapağan qardaşı İltərişin oğullarını-Bilgəni və Kül tiqini hakimiyyət ətrafında birləşdirir. Bilgə kağan türk

xalqına müraciətlə deyir: “Türk, Oğuz bəyləri, xalqı! Eşidin: Yuxarıda Tanrı basmasa, aşağıda yer dəlinməsə, türk xalqını, dövlətini, nizamını-qanununu kim pozar?”

Kitabədə olduqca yüksək fəlsəfi-əxlaqi dəyərlərə malik fikirlər mövcuddur. Bilgə kağan bacarıqsız, səbatsız dövlət başçılarının etdiklərini, səhvlərini, günahlarını bir-bir sadalayır, tarxini, keçmişini unudanları, milli-etnik dəyərlərə hörmət bəsləməyənləri doğru yola səsləyir. Kitabədə Bilgə kağanın Kül tiqinlə birlikdə hakimiyyəti gücləndirmələrindən, ata-babalardan qalmış dövlət ənənələrinə sədaqətlərindən bəhs edilir, hər iki qardaş türk xaqının rifahı üçün düşünür, bütün güc və səylərini buna yönəldirlər. Kitabənin bir yerində Bilgə kağan deyir: “Mən biriki buduniğ ot, sub kılmadım”, bununla Bilgə kağan bildirir: “Mən bütöv xalqı od və su eləmədim”. Bu ifadədən anlaşılır ki, Bilgə kağan xalqın bir-birinə əks olan qüvvələrə parçalanmasına imkan verməmiş, bütövlüyün qorunması üçün Kül tiqinlə birlikdə hərbi, siyasi fəaliyyət göstərmişlər.

Qeyd edildiyi kimi, “Kül tiqin” abidəsinin mətni Kül tiqinin qardaşı Bilgə kağan tərəfindən söylənilmiş, Kül tiqinin gənc vaxtlarında dünyadan köçməsindən doğan kədərini, hüznünü qəbirüstü daşa həkk etdirmişdir. Kitabədə Kül tiqinin vaxtsız ölümü ilə bağlı Bilgə xaqanın-qardaşın kədəri, qəlb ağrıları və türk millətinin hüznü, əvəzsiz itkidən doğan qəmi təsirli rekviyem kimi verilir, “Türk xaqanlığının banisi İltəris xaqanın kiçik oğlu, məşhur türk sərkərdəsi, yenüməz bahadır Kül tiqinin (685-ci ildə anadan olmuş, 27 fevrai 731-ci ildə vəfat etmiş, 1 noyabr 731-ci ildə dəfn edilmişdir) şərəfinə qoyulmuşdur. Abidənin mətni yazılmış daş 1 avqust 732-ci ildə qoyulmuş, 733-cü ilin sonunda hazır olmuşdur” **( 3.34 ).**

Qəhrəman Kül tiqin qırx yeddi il yaşamış, qırx yeddi illik ömrünün otuz ilini döyüş meydanlarında keçirmiş, on yeddi yaşından bu cəngəavər türk dünyasının düşmənləri ilə mübarizə aparmış, ağır döyüş yolu keçmişdir. Döyüşlərdə göstərdiyi cəsarət və qəhrəmanlıqlara görə alp-ərənlər kimi ad-san qazanır, adı ilə türk düşmənlərini daim qorxu içərisində saxlayır. Kül tiqin on altı yaşında olarkən döyüşlərə qatılır, qalib gəlir. Qardaşı Bilgə ilə birlikdə hücum edən əlli minlik ordunun qarşısına çıxır, başdan-ayağa zireh geymiş silahlı adamları əsir alır, düşmən ordusunu məhv edir. Kül tiqin yüksək sərkərdəlik qabiliyyətinə malikdir, döyüşü aparmaq texnikasına dərindən yiyələndiyi üçün, hərb meydanında işlətdiyi taktikaya görə düşmən qüvvələr məğlub olur. Artıq bütün bunlar bir tarix, keçilmiş bir ömür, yaşanmış bir qəhrəmanlıq kimi xatırlanır, doğma qardaşı Kül tiqinin cəsarət və yenilməzliyini Bilgə kağan acı göz yaşları ilə, ürəyi parçalanaraq dərin kədərlə söyləyir, qəlbini əzən ağrılarını qəbirüstü abidəyə həkk etdirir. Bilgə kağan qardaş itkisindən doğan acısını belə ifadə edir: “Kiçik qardaşım Kül tiqin öldü, özüm kədərləndim. Görən gözüm görməz tək, bilən biliyim bilməz tək oldu, özüm kədərləndim. Baxtı tanrı yazar, insan övladının hamısı olümlü törəmiş. Beləcə kədərləndim. Gözdən yaş gəlsə, ürəkdın güclü hıçqırıq gəlsə, yanaraq kədərləndim,

möhkəmcə kədərləndim" **(2.272).** Faciənin ağırlığından Bilgə kağan sarsılır, onun açılarına şərik olmaq üçün, onun dərdlərini bölmək üçün matəm mərasimində iştirak edənlər fəryad qoparırlar, bütün doğmalar, qohumlar, övladlar, döyüşçülər, ölkənin bəyləri bu böyük itki üçün göz yaşı tökürlər.

Türk xalqı bütün dövrlərdə dünyadan köçmüş qəhrəman övladlarına, şərəfli sərkərdələrinə yas saxlamış, zaman-zaman bu qəhrəmanların həyat yollarını, doğma xalqına, elinə bağlılıqlarını gənc nəslə nümunə göstərmiş, xalqın qəhrəmanlıq ruhunu bu cəngavərlərin həyat və döyüş yolları ilə yüksəkliklərə qaldırmışlar. Kül tiqində hakimiyyət ehtirası, taxt-tac hərisliyi yoxdur, onun həyatda əsas qayəsi türk xalqının azad, qalib xalq kimi yaşaması, əcdadlardan miras qalmış Göy Türk dövlətinin mövcudluğu, yenilməzliyi idi. Belə bir amalla mübarizə aparan Kül tiqin adi döyüşçü olanda da, sərkərdə kimi döyüşü idarə edən də, Bilgə kağanın qardaşı kimi dayananda da yalnız türk xalqının səadəti və azadlığını, Göy Türk dövlətinin sarsılmazlığını düşünür. Bigə kağanla Kül tiqin arasındakı qardaş birliyi, və etibarlılığı bu tarixi şəxsiyyətlərin yaşadıqları mürəkkəb dövr üçün heyrətamiz bir fakt idi, bundan əlavə, ibrətamiz həyat hadisəsi, doğmalıq təzahürü kimi gələcək nəsillər üçün yadigar qoyulmuşdur.

"Kül tiqin" kitabəsi bir qəhrəmalıq dastanıdır, burada Kül tiqinin döyüş yolu, qalib gəldiyi hərbi səfərlər təsvir olunsa da, abidə qəhrəman Kül tiqinin şərəfinə onun adı ilə adlandırlsa da, həmin dövr tarixi hadisələri, hərbi-siyasi mübarizələri haqqında da məlumat verilir. Doğrudan da, "Trilogiya silsiləsində "Kül tiqin" əsəri hər cəhətdən seçilir. İstər tarixi ibrət dərsi vermək baxımından, istər təsvirin məntiqi və təsirliliyi cəhətdən,istər hadisələrin əhatə dairəsinə və bütövlüyünə görə, istərsə də əsərin aparıcı qəhrəmanı-obrazı olmaq etibarilə Kül tiqin şəxsiyyətinin mükəmməlliyi mövqeyindən bu dastan o birilərindən çox yüksəkdə durur" **(1.104).** Bir daha aydın olur ki, Kül tiqinin tarixi şəxsiyyət kimi fəaliyyətinin, qəhrəmanlığının, milli-əxlaqi dəyərlərə söykənən davranış tərzinin, dünya-görüşünün, türk xalqının qorunması və mövcudluğu üçün apardığı mübarizənin ictimai-fəlsəfi məzmunu abidənin mahiyyətini, əsasını təşkil edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə.II cild, Bakı, "Elm", 2007
2. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı, AzAtaM, 2004
3. Rəcəbli Ə. Qədim türk yazısı abidələrinin dili. I hissə. Bakı, Nurlan, 2006

**Aghayev Ismayil**
**Sumgayit State University**

**HISTORISITY AND HEROISM IN ANCIENT TURKISH MONUMENTS**

**Summary**

**Keywords**: **ancient Turks, Turkish culture, Turkic-speaking peoples, written monuments, historical personalities, historicity, heroism**

The article examines ancient Turkish monuments and written texts from a social-philosophical, artistic-aesthetic point of view. The history of the ancient Turks, full of battles is reviewed, and the struggles they waged for the protection of the lands and the free living of the people are discussed. The social and moral content of the appeals of historical figures to the future generations for the protection of the state and the people is discussed. The integrity within the society, the inviolability of internal unity is shown as the basis of victory in the fight against the enemy. The necessity of studying the ways of life and struggle of historical figures, the modernity of the ideas and views of the heroes about the homeland and the people is clarified.

The first written examples in the native language of the Turks are tombstones found on the banks of the Orkhon and Yenisei rivers in the 6th-7th centuries. These inscriptions were written in an alphabet created by the ancient Turks. Reading this alphabet, along with studying the ancient Turkish language, has created opportunities for discovering ancient Turkish history and a great culture, and for studying the ethnic and cultural ties of Turkish-speaking peoples. Among the ancient Turkish monuments, written texts called "Kül tigyn", "Bilge kagan" and "Tonyukuk" have a special place.

**Агаев Исмаил**
**Сумгаитский Государственный Университет**

**ИСТОРИЧНОСТЬ И ГЕРОИЗМ В ДРЕВНЕТУРЕЦКИХ ПАМЯТНИКАХ**

**Резюме**

**Ключевые слова: древние тюрки, турецкая культура, тюркоязычные народы, письменные памятники, исторические личности, историчность, героизм**

В статье рассматриваются древние турецкие памятники и письменные тексты с социально-философской, художественно-эстетической точки зрения. Рассматривается насыщенная сражениями история древних тюрков,

обсуждается борьба, которую они вели за защиту земель и свободное существование народа. Обсуждается социально-нравственное содержание обращений исторических деятелей к будущим поколениям о защите государства и народа. Целостность внутри общества, нерушимость внутреннего единства показана как основа победы в борьбе с врагом. Выясняется необходимость изучения образа жизни и борьбы исторических деятелей, современности представлений и взглядов героев о Родине и народе.

Первые письменные памятники на родном языке тюрков были найдены на надгробиях на берегах рек Орхон и Енисей в VI-VII вв. Эти надписи были сделаны с помощью алфавита, созданного древними тюрками. Чтение этого алфавита, наряду с изучением древнетюркского языка, создало возможности для открытия древней тюркской истории и великой культуры, а также для изучения этнических и культурных связей тюркоязычных народов. Среди древнетюркских памятников письменности особое место занимают тексты «Кюль тегин», «Бильге каган» и «Тоньюкук».

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cümənov Dəyanət**